


# Azərbaycan sülh gündəliyinə sadiqdir

**"Azərbaycan və Ermənistan arasında saziş imzalandığı təqdirdə, əlbəttə ki, əməkdaşlığın başlanılmasına heç bir maneə qalmayacaq. Mən bir çox hallarda Ermənistandan ərazi bütövlüyümüz və onların konstitusiyası ilə bağlı gözlədiklərimizi dəfələrlə açıq şəkildə bildirmişəm. Bunlar məlumdur. Beləliklə, bütün bu işlər tamamlanan və sülh sazişi imzalanan kimi Cənubi Qafqazı inteqrasiya olunmuş regiona çevirməyə cəhd etmək üçün heç bir maneə qalmayacaq".**

Aprelin 9-da ADA Universitetində keçirilən "Yeni dünya nizamına doğru" mövzusunda beynəlxalq forumun iştirakçılarının suallarını cavablandıran zaman Prezident İlham Əliyev açıq şəkildə bəyan etdi ki, bölgədə dayanıqlı sülhün əldə olunması üçün Ermənistan Azərbaycanın beynəlxalq hüquqa dayanan tələblərini yerinə yetirməlidir.

Birmənalı olaraq İrəvan konstitusiyasını dəyişməli, ATƏT-in keçmiş Minsk qrupunun hüquqi olaraq da ləğv edilməsi üçün Bakı ilə birgə müraciət etməlidir.

Təbii ki, yalnız belə olan halda regionda dayanıqlı sülhdən, təhlükəsizlikdən, inkişafdan söz açmaq mümkündür.

## Tarixi fürsət

Azərbaycan 44 günlük Vətən müharibəsində qələbə qazanması ilə ümumilikdə regionda reallıqları dəyişdi. Hələ işğal dövründə Bakı hər zaman ikili standartlara, ədalətsizliyə qarşı bütün yüksək tribunalardan bəyan edirdi ki, torpaqlarının işğalı ilə barışmayacaq, hansı yolla olur-olsun, istər danışıqlar, istərsə də müharibə olsun, ərazilərini azad edəcək. İkinci Qarabağ savaşı və 23 saatlıq antiterror tədbirləri Azərbaycanın bu bəyanatlarının gerçəklikdə qətiyyətlə yerinə yetirilməsini gözlər önünə sərdi. Həmçinin beynəlxalq ictimaiyyət də onilliklərdir dalana dirənmiş münaqişənin hərb yolu ilə həllindən sonra Cənubi Qafqazda sülh üçün yaranan tarixi fürsəti görmüş oldu.

Vətən müharibəsindən dərhal sonra Ermənistana sülh təklif edən və özünün beynəlxalq hüquqa əsaslanan beş baza prinsipini təqdim edən ölkəmiz ötən müddət ərzində bu istiqamətdə əməli addımlar atıb.

İki ölkə arasında sərhədlərin delimitasiya və demarkasiyasına start verilməsi, Qazaxın dörd kəndinin bir güllə belə atılmadan, bir itki verilmədən qaytarılması, eyni zamanda Azərbaycanla Ermənistan arasında sülh sazişi layihəsinin mətni ətrafında danışıqlar prosesinin yekunlaşması normallaşmaya aparan yolun mühüm addımlarıdır ki, bütün bunlar məhz Bakının xüsusi səyləri sayəsində mümkün olub.

Hazırda isə sülh müqaviləsinin imzalanmasına yeganə maneə yaradan məsələlər Ermənistanın Azərbaycan ərazilərinə iddia olan konstitusiyasını dəyişməməsi və ATƏT-in keçmiş Minsk qrupunun ləğvi ilə bağlı ölkəmizlə birgə müraciət etməməsidir.

Çünki Ermənistan konstitusiyasının preambula hissəsində müstəqillik bəyannaməsinə istinadən ərazi iddiaları yer alır. Ermənistan indiyə qədər konstitusiyasını dəyişməməkdə israr etməklə əslində torpaqlarımıza iddiasından əl çəkmək istəmədiyini aydın göstərir.

Həmçinin dünyada artıq Qarabağ münaqişəsi adlı bir münaqişə mövcud olmadığı üçün ATƏT-in keçmiş Minsk qrupuna da lüzum qalmayıb. Məlum həqiqətdir ki, keçmiş Minsk qrupu fəaliyyət göstərdiyi 28 ildə münaqişənin Ermənistanın xeyrinə dondurulmasına çalışır, problemin müharibə yolu ilə həllinin mümkün olmadığını iddia edirdi.

Bitmək bilməyən nəticəsiz danışıqlardan təngə gələn Azərbaycanın torpaqlarını güc yolu ilə işğaldan azad edərək suverenliyini bərpa etməsi ilə Qarabağ münaqişəsi də birdəfəlik həll olundu. Bununla da növbəti məqam, sülh müqaviləsinin imzalanması zamanı yetişdi. O sülh müqaviləsi ki, birbaşa regionda təhlükəsizliyin, inkişafın, tərəqqinin açarıdır.

## "Cənubi Qafqaz regionunda de-fakto sülh var"

Bu günlərdə Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "Tasnim"ə müsahibəsində söyləyib ki, Ermənistanla münasibətlərin normallaşdırılması xüsusunda sülh müqaviləsinin əsasını təşkil edən beş prinsip və hətta bu sənədin mətni Bakı tərəfindən, Azərbaycan tərəfindən tərtib olunaraq Ermənistan tərəfinə təqdim edilib. Bu, Azərbaycanın regional sülh gündəliyinə nə qədər sadiq olduğunun, nə qədər dəstəklədiyinin növbəti bariz təcəssümüdür.

Prezidentin köməkçisi "Müsbət bir haldır ki, sülh müqaviləsinin mətni yekunlaşıb. Amma bununla bərabər, Ermənistanla ikitərəfli əsaslarda olan açıq məsələlər var. Biz düşünürük ki, Ermənistan konstitusion əsasda Azərbaycana qarşı bütün ərazi iddialarına son qoymalıdır ki, regionda davamlı, qəti sülhə nail olaq", - deyə əlavə edib.

Hikmət Hacıyevin sözlərinə görə, hazırda Cənubi Qafqaz regionunda sülh üçün əlverişli şərtlər formalaşıb: "Məmnunluqla deyə bilərik ki, Azərbaycanla Ermənistanın müstəqilliyini əldə etməsindən bu yana bu gün regionda sülh üçün ideal şərait yaranıb. Həqiqətən, regionda sülh var, sabitlik var. Hətta deyə bilərik ki, de-fakto regionda sülh var. Bunun hüquqi çərçivəyə salınması istiqamətində də Azərbaycan öz üzərinə düşəni edəcəkdir ki, regionda tam şəkildə qəti sülh bərqərar olsun".

Torpaqlarının işğalına son qoyaraq suverenliyini təmin edən ölkəmiz hazırda Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı quruculuq və bərpa işləri həyata keçirir, o ərazilərə qayıdış həyata keçirir. Eyni zamanda gündən-günə siyasi, hərbi, iqtisadi gücünü artıraraq dünyanın nufuzlu ölkəsinə çevrilən Azərbaycan bölgədə barışın əldə edilməsi üçün qətiyyətli siyasət yürüdür. Yuxarıda da vurğuladığımız kimi, məhz sülh təşəbbüskarı olan və sülh üçün alternativin olmadığını hər zaman müdafiə edən ölkəmizin səylərinin nəticəsidir ki, Ermənistan ilə Azərbaycan arasında sülh müqaviləsinin imzalanması istiqamətində mühüm irəliləyişlərə nail olunub. Bu sayədə bölgədə münaqişələrdən, müharibələrdən uzaq təhlükəsiz mühit yaranıb ki, bu da davamlı sülhə birbaşa yol açıb.

Qeyd etdiyimiz bütün bu müsbət amillərə nəzərən demək olar ki, prinsip etibarı ilə hazırda Ermənistan ilə Azərbaycan arasında sülh müqaviləsinin imzalanması üçün elə də böyük maneələr qalmayıb. Bunun üçün Ermənistan Azərbaycanın sülh müqaviləsinin imzalanması üçün irəli sürdüyü tələbləri yerinə yetirməlidir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 20 may (№103).- S.8.